# «Dövlət və yerli özünüidarə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması Qaydası»nın təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə əsasən **qərara alıram:**

1. «Dövlət və yerli özünüidarə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması Qaydası» təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 16 fevral 2011-ci il***

***№ 385***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (17 fevral 2011-ci il, № 37) («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Prezidentinin*
*2011-ci il 16 fevral tarixli, 385*
*nömrəli*
*Fərmanı ilə*
***təsdiq edilmişdir***

# Dövlət və yerli özünüidarə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması Qaydası

## *1. Ümumi müddəalar*

1.1. Bu Qayda «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı»nın (Elektron Azərbaycan)» təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 avqust tarixli, 1056 nömrəli Sərəncamının 3.1-ci bəndinə əsasən hazırlanmışdır və dövlət və yerli özünüidarə orqanlarının (bundan sonra — informasiya sahibləri) əldə olunması qanunla məhdudlaşdırılmayan aktlarının elektron informasiya sistemləri vasitəsilə ümumi istifadə üçün açıqlanması qaydasını müəyyən edir.

1.2. İnformasiya sahiblərinin aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması sorğu verilmədən həmin aktların internet informasiya ehtiyatlarında yerləşdirilməsidir (bundan sonra — internet informasiya ehtiyatlarında açıqlanması).

1.3. İnformasiya sahiblərinin aktları dedikdə, hüquqi aktlar (normativ hüquqi aktlar, normativ xarakterli aktlar və qeyri-normativ hüquqi aktlar), hüquqi aktların layihələri və məhkəmə aktları nəzərdə tutulur.

1.4. Qanunvericiliklə başqa tələblər müəyyən edilmədikdə, məhkəmə aktlarının internet informasiya ehtiyatlarında açıqlanması bu Qaydaya uyğun olaraq həyata keçirilir.

1.5. Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində açıqlanması müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

## *2. İnformasiya sahiblərinin aktlarının açıqlandığı internet informasiya ehtiyatları*

2.1. İnformasiya sahiblərinin aktları onları qəbul etmiş informasiya sahibinin internet informasiya ehtiyatında açıqlanmalıdır.

2.2. İnformasiya sahiblərinin aktları dərc edildiyi rəsmi dövri mətbu nəşrlərin internet informasiya ehtiyatlarında da açıqlanmalıdır.

2.3. İnformasiya sahiblərinin aktlarının bu Qaydada nəzərdə tutulmuş internet informasiya ehtiyatlarında açıqlanması, onların digər internet informasiya ehtiyatlarında da açıqlanmasını məhdudlaşdırmır.

## *3. İnformasiya sahiblərinin aktlarının internet informasiya ehtiyatlarında açıqlanmasına dair tələblər*

3.1. Hüquqi aktlar qüvvəyə mindiyi gündən, hüquqi aktların layihələri razılaşdırılmaya göndərildiyi andan internet informasiya ehtiyatında açıqlanır.

3.2. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, kassasiya və apellyasiya instansiyası məhkəmələrinin bütün qərarları qəbul olunduğu gündən bir aydan gec olmayaraq açıqlanır. Bu qərarlarla birlikdə aşağı instansiya məhkəmələrinin ləğv edilmiş və ya dəyişdirilmiş qərarları da açıqlanmalıdır. Birinci instansiya məhkəmələrinin hökmləri qanuni qüvvəyə mindiyi gündən, digər qərarları isə qəbul olunduğu gündən on gün müddətində açıqlanır.

3.3. Açıqlanmış aktın mətni aktın əsli olan nüsxəsindəki mətnlə uyğun olmalıdır.

3.4. Aktların məzmunu tam həcmdə açıqlanır. «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikası Qanununun 34.4-cü maddəsində göstərilən əldə olunması məhdudlaşdırılan informasiyanı əks etdirən aktlar və ya aktların ayrı-ayrı müddəaları açıqlanmır. Məhkəmə aktlarında prosesdə iştirak edən şəxslər (hakim, prokuror və müdafiəçi istisna olmaqla) barədə fərdi məlumatlar (şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumat) adsızlaşdırılır (onun subyektinin kimliyini müəyyənləşdirməyə imkan verməyən vəziyyətə salınır).

3.5. Aktlar onların məcburi rekvizitləri göstərilməklə açıqlanır.

3.6. İnformasiya sahiblərinin aktlarının internet informasiya ehtiyatlarında açıqlanması aşağıdakı texniki tələblərə uyğun olmalıdır:

3.6.1. internet informasiya ehtiyatlarında açıqlanan aktlara çıxış sərbəst və ödənişsiz olmalıdır. Açıqlanmış aktlara müraciət edilməsi zamanı istifadəçinin qeydiyyatdan keçməsi, istifadəçi barədə fərdi və digər məlumatların daxil edilməsi tələb olunmur;

3.6.2. internet informasiya ehtiyatlarında açıqlanan akt ödənişsiz yüklənən internet axtarış proqram təminatları vasitəsilə oxuna bilən, həmçinin mətnin istənilən fraqmentinin köçürülməsinə və axtarışına imkan verən fayl formatında olmalıdır;

3.6.3. aktın faylının mətni İSO 10646 (Unicode) beynəlxalq standartına uyğun olmalıdır.

3.7. İnformasiya sahiblərinin aktlarının qanunvericiliklə müəyyənləşdirilmiş tələblərə uyğun açıqlanması üçün məsuliyyəti, bu funksiyanın icrası rəsmi qaydada başqasına həvalə olunmayıbsa, informasiya sahibinin rəhbəri daşıyır.

## *4. Yekun müddəa*

4.1. Bu Qaydaya əsasən dövlət orqanlarının aktlarının 2012-ci il yanvarın 1-dək, yerli özünüidarə orqanlarının aktlarının 2014-cü il yanvarın 1-dək internet informasiya ehtiyatlarında açıqlanmasının təşkili başa çatdırılmalıdır.